

***Əjdər Qiyaslı***
***İqtisadçı alim, şair***

# *Ucadır adın*

***Ana adına şöhrət gətirən, sayılıb-seçilən el ağbirçəyi Əntiqə xanım Muradovanın əziz və unudulmaz xatirəsinə ithaf edirəm.***

Həyatın məhvəri, özüdür Ana;
Dünya bir yanadır, Ana bir yana.
O elə varlıqdır, ona tay olmaz;
Qəlbinin nur saçan Günəşi solmaz!
Sən elə anaydın, xilqətdə xanım,
Şam kimi sönməzdi canında yanım.
Qayğısın çəkərdin elin, obanın;
Eşqiylə yanardın yurdun, yuvanın.
Xeyir iş görəndə üzün gülərdi,
Üzündən, gözündən nur tökülərdi.
O qədər xeyirxah ürəyin vardı,
Çətinə düşənlər səni tapardı.
Naümid qoymazdın dara düşəni,-
Kimsə qıra könül adlı şüşəni.
Yaxşılıq etdikcə sənin özün də,-
Gülüstan olurdu dünya gözündə!
Bilirdin hər şeyin qədir-qiymətin,
Hikmətlə doluydu sözün-söhbətin.
Yaxşılıq haqqında deyirdin belə:
Sən çalış həmişə yaxşılıq elə...
Yaxşılıq etməyi adət etdin özünə,
Yaxşılığın nurundan işıq gəldi gözünə.
Sən elə anaydın... ellər anası,
Heş zaman Tanrıya olmadın ası!
Tanrı da pay verdi öz ürəyincə,
Dünya nemətindən bəsdi deyincə...
Zəhmətlə böyütdün övladlarını,
Çox şükür... Tanrı da verdi barını.
Adına layiqdir hər bir övladın,
Anatək həmişə UCADIR ADIN!